


# XXXI Rio-de-Janeyro Yay Olimpiya Oyunları

AZERBAIJAN

# Cüdoda növbəti gümüş medal...



## Elmar Qasımov Azərbaycanın hesabına ikinci medalı yazdırdı

Rioda təşkil olunan Olimpiya Oyunlarının başa çatmasına 8 gün qalıb. Günlər azaldıqca hər bir idman növündə yarışlar gərgin və maraqlı xarakter almağa başlayır. Şübhəsiz ki, Azərbaycan Rioda yarışan atletlərimizdən medallar gözləyir. Hər gün milyonlarla tamaşaçının nəbzi Braziliyada idmançılarımızla vurur. Sevindirici haldır ki, atletlərimiz də onlara inananların etimadını doğrultmağa çalışır.

XXXI Yay Olimpiya Oyunlarında avqustun 6-dan etibarən start götürən cüdo yarışlarında ölkəmizin hesabına ilk medalı (gümüş) cüdoçumuz Rüstəm Orucov (75 kq) yazdırıb.

Rüstəmin bu estafetini həmkarı Elmar Qasımov davam etdirib: Braziliyadan 2-ci medal xəbəri gəlib. Cüdoçumuza bəslənilən ümidlər növbəti dəfə özünü doğruldub. Elmar qazandığı gümüş medalla ölkə idmanına növbəti töhfəsini verib. 100 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz olimpiadaya 1/16 final mərhələsindən başlayıb. İlk rəqibi rusiyalı olimpiya çempionu Taqir Xaybullayev olub. Elmar rəqibinə heç bir şans verməyərək vazari və yuka xalları ilə qalib gəlib.

1/8 finalda isə o, əlcəzairli Lyes Bouyakubla qarşılaşıb. Görüşdə hər iki idmançı bir vazari xalı qazansa da, təmsilçimizin şidosunun rəqibindən az olması (1:2) onu 1/4 finala yüksəldib. Yarımfinal uğrunda güləşdə misirli həmkarı Dərviş Ramazana ipponla qalib gələn Elmar arzusuna çatıb.

Təmsilçimizin final yolundakı rəqibi ukraynalı Artyom Bloşenko olub. Elmar bu rəqibini də ipponla mübarizədən kənarlaşdıraraq finala yüksəlib. Həlledici mərhələdə rəqib çexiyalı Lukas Krpalek olub. Gərgin keçən döyüşün yekununda ipponla uduzan təmsilçimiz olimpiadanın gümüş medalı ilə kifayətlənməli olub.

Beləliklə, Elmar Qasımov Rioda mükafatçılar sırasında yer almaqla əsl peşəkar, işinə ciddi yanaşan idmançı olduğunu sübut edib. Görüşdən sonra jurnalistlərin suallarını cavablandıran Elmar məğlub olmasını yorğunluqla əlaqələndirib: "Düzünü deyim ki, Rioya bir az yorğun gəlmişdik. Lakin bizim bura erkən gəlməyimiz, iki həftə ərzində buranın iqliminə uyğunlaşmağımız baxımından lap yerinə düşdü. Hazırlığımda bu amillərin hədsiz rolu oldu. Yarışa tam hazır vəziyyətdə çıxmışdım. Birinci görüşdən də aydın hiss etmək olardı ki, fiziki, funksioanl və taktiki hazırlığım qaydasındadır. Yarımfinala qədər titullu rəqiblərimdən və qələbəyə əsas namizədlərdən biri ilə görüşsəm belə, həmin ana qədər hər şey əla gedirdi. Ukraynalı rəqibim Artyom Bloşenko ilə görüşdə var gücümü ortaya qoydum. Çünki bilirdim ki, iki-üç dəqiqə ərzində, nə bacarırsa, ortaya qoymalıdır, yoxsa məğlub olacaq. Mən buna hazır idim. Lakin çox qüvvə sərf etdim. Bütün əzələ qruplarımı fəal çalışdırdım. Sonra isə finala qədər çox az vaxt qaldı. Tam bərpaya vaxt imkan vermirdi. Çox yorulmuşdum. Fürsətdən istifadə edib xalqımıza təşəkkür edirəm. Əlbəttə, idmandakı nailiyyətlərimdə valideynlərimin əvəzsiz xidməti, rol oynayıb. Məni idmana atam gətirsə də, yeddi il böyük uğuru gözləmişəm. Məndən çox uğurlarıma məhz valideynlərim inanıb".



Tarixdə ilk dəfə olaraq paytaxtımızda keçirilən ilk Avropa Oyunlarının açılış mərasimində Azərbaycan milli komandasının bayraqdarı olan Elmar 1990-cı il noyabrın 2-də anadan olub. "Atilla" idman klubunun yetirməsi kimi cüdoçumuz 2012-ci ildə böyüklər arasında Avropa çempionatında bürünc, 2013-cü ildə Türkiyənin Samsun şəhərində cüdo üzrə Qran-pri yarışlarında gümüş, 2014-cü ildə qitə birinciliyində gümüş, Tbilisi və Budapeştdə keçirilən Qran-pri yarışlarında isə bürünc medallara layiq görülüb. Ötən il isə Tbilisi və Samsun Qran-pri turnirlərində qızıl medal qazanıb. Olimpiya oyunlarına lisenziyanı Beynəlxalq Cüdo Federasiyasının reytinq cədvəlinə əsasən qazanıb. Cüdoçumuz həmin reytinq cədvəlində 100 kq-dək çəki dərəcəsində ilk sırada qərarlaşıb.

İdman ictimaiyyəti Elmarı 2009-cu ildə Ermənistanın paytaxtı Yerevanda qazandığı möhtəşəm tarixi qələbə ilə daha yaxından tanımağa başlayıb. O, gənclər arasında Avropa çempionatının qızıl medalını qazanaraq Yerevanda ölkəmizin bayrağını qaldırıb və Azərbaycanın dövlət himnini səsləndirib.

Bu il isə Rio Olimpiadası və gümüş medal...

Ümid edirik ki, Elmar və Rüstəmin qazandığı gümüş mükafatlar ölkəmiz üçün axarıncı olacaq. Bundan sonra digər idmançılarımız da qələbələr qazanaraq xalqımızı sevindirəcəklər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***